# C.CABBARLI

## «Hamlet»dən nəğmələr

### Yaqonun mahnısı

Vur, qədəhlər toqquşsun qoy,
Dalğalansın badələr.
Qoy ariflər zövq alsınlar,
Qəm çəksinlər sadələr.

Dünya bağdır, sən də bağban,
Gir, nə gördün dər getsin.
Kim nə versə al, qazancdır,
Nə istəsə, ver getsin.

Beş gün dünya dərdə dəyməz,
Bir gün acsan, bir gün tox...
Səksən, doxsan... bir gün yoxsan,
Bir gün varsan, bir gün yox!

Bu dünyadan bizi bir gün,
Qara torpaq alacaq.
Ey, şərab ver bizə ancaq,
Keyf, əylənmək qalacaq.

Sən ey qafil, taleyini,
Yaxşı düşün bir anlıq.
Gəldiyin yol qaranlıqdır,
Getdiyin yol qaranlıq.